UOT 341.01

# BEYNƏLXALQ HÜQUQ NORMALARININ AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT QANUNVERİCİLİYİNDƏ REALİZƏSİ PROBLEMİ

**K.K.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***CONAN_626@mail.ru***

*Məqalə özünün elmi əsaslandırılmış arqumentləri və müvafiq praktik əhəmiyyəti ilə aktuallıq kəsb edir. Bu mənada müəllif qeyd edilən istiqamətdə beynəlxalq və dövlətdaxili qanunvericilikdə qəbul edilmiş kifayət qədər normativ hüquqi aktların ətraflı təhlilini aparmış, hüquq ədəbiyyatında fikir müxtəlifliyinə diqqətlə yanaşmış, həmçinin bu istiqamətdə yaranan problemlər, dövlətlərin qanunvericilik və beynəlxalq müqavilə təcrübəsinə geniş surətdə müraciət etmişdir.*

**Açar sözlər:** beynəlxalq əməkdaşlıq, ümumtanınmış insan hüquqları, dövlətdaxili qanunvericilik, cinayət qanunvericiliyi, beynəlxalq hüquq.

Beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquq sistemində implementasiya ilə bağlı konstitusion mərhələ cinayət hüququ üçün ümumi əsas yaradır. Bütövlükdə bu problem istiqamətində kifayət qədər tədqiqatlar aparılmasına baxmayaraq, yenə də hüquq elminin aktual problemi olmaqda davam edir [4; 5; 6; 7; 8; 9].

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən, törədilmiş cinayətə görə cinayət məsuliyyətinin əsasları və hüdudları yalnız bu Məcəllə ilə təyin oluna bilər, cinayət məsuliyyətini müəyyənləşdirən yeni qanunlar isə «bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər» (m.1.3). Belə nəticə yaranır ki, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində bu və ya digər əmələ görə cinayət məsuliyyətinin şərtlərində nəzərdə tutulan dəyişikliklər bilavasitə Cinayət Məcəlləsinin mətninə daxil edilməlidir. Bu halda dövlətdaxili qanunvericilik cinayət məsuliyyəti məsələlərini tənzimləyən beynəlxalq müqavilənin qüvvəyə minməsi zamanı Cinayət Məcəlləsinin normalarının dəyişdirilməsi qaydasını müəyyənləşdirir.

Cinayət-hüquqi əhəmiyyətə malik beynəlxalq aktın qüvvəyə minməsi zamanı Məcəllədə dəyişiklik edilməsi resepsiya (beynəlxalq hüquq aktının müddəalarının Cinayət Məcəlləsinə birbaşa daxil edilməsi) və transformasiya

(beynəlxalq hüquq aktının qaydalarına uyğun olaraq Cinayət Məcəlləsinin müddəalarının dəyişdirilməsi) ilə həyata keçirilə bilər. Bu zaman beynəlxalq müqavilənin tətbiqi iki halla şərtlənir: cinayət qanunvericiliyi müvafiq münasibəti tənzim edən normaya malik olmadıqda; beynəlxalq müqavilə formasında daha səmərəli tənzimetmə qaydası nəzərdə tutulmalıdır. Azərbaycan Respublikası üçün qüvvəyə minmiş beynəlxalq müqavilədə müəyyənləşdirilən qaydalar Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan qaydalardan fərqlənərsə, məhkəmə işə baxarkən cinayət qanununun normalarını tətbiq edə bilməz. Ümumi praktikaya görə bu halda beynəlxalq müqavilənin qaydaları tətbiq edilir.

Azərbaycan Respublikasının yeni qəbul olunmuş (30 dekabr 1999-cu il Qanunu ilə təsdiqlənmiş və 1 sentyabr 2000-ci ildən qüvvəyə minən) Cinayət Məcəlləsi («beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslanaraq» (m.1.2)) beynəlxalq hüquqda əks etdirilmiş beynəlxalq cinayətlərin, beynəlxalq xarakterli cinayətlərin, demək olar ki, bütün tərkiblərini ehtiva etmişdir. Cinayət Məcəlləsinin Xüsusi hissəsi sülh və insanlıq əleyhinə cinayətləri, soyqırımı, müharibə cinayətlərini nəzərdə tutan bölmə ilə başlanır. Azərbaycan Respublikası həmin ağır cinayətləri öz hüquq qaydası üçün də ən təhlükəli cinayətlər hesab etməklə onlara qarşı mübarizəni cinayət qanunvericiliyinin başlıca vəzifəsi sayır.

Buna baxmayaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsində beynəlxalq müqavilə normalarının prioritet məsələsi açıq qalır. Beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına əsaslansa da (bu zaman beynəlxalq hüquq Cinayət Məcəlləsinin yalnız ümumi hissəsinə münasibətdə tətbiq edilə bilər. Belə ki, onlar sanksiyanı nəzərdə tutmadığı üçün konkret cinayət növlərinə tətbiq edilə bilmirlər) [11, 23)] – eyni zamanda həmin Məcəllə cinayət hüququnun yeganə mənbəsi hesab edilir.

İmplementasiya edilmiş beynəlxalq müqavilə norması qanunvericilik sisteminin tərkib hissəsi kimi elan edildiyi üçün ona münasibət də dəyişilməlidir. Azərbaycan Respublikası Cinayət Məcəlləsindən fərqli olaraq bəzi sahəvi qanunvericilik aktlarında dövlətdaxili normativ aktlarla beynəlxalq müqavilə normaları arasında mümkün ziddiyyətlərin aradan qaldırılmasına dair göstərişlərə rast gəlinir. Azərbaycan Respublikası ərazisində cinayət işləri üzrə icraat cinayətin törədildiyi yerdən asılı olmayaraq Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə və cinayət mühakimə icraatına aid digər qanunvericilik aktlarına uyğun aparılmalıdır və cinayət prosesi sferasında beynəlxalq müqavilələr qanunvericiliyin mənbəsi olduqdan sonra [m.2.1.4] tənzimetmə funksiyasını həyata keçirir. Bu zaman tanınmış, tərəfdar çıxılmış beynəlxalq müqavilə birbaşa tətbiq edilə bilər.

Beynəlxalq müqavilənin birbaşa tətbiqi üçün onun qanunvericilik sisteminə daxil edilməsini təmin edən hüquqi akt məhkəmə, digər hüquqtətbiqedən orqan üçün əsas olacaq. Belə bir qayda hüquqtətbiqetmə prosesində müvafiq

qurumların, məhz konkret qanunvericilik sisteminə daxil olan aktlara əsaslanmasından irəli gəlir. Qeyd edilən pozitiv model Azərbaycan Respublikasının Məhkəmələr və hakimlər haqqında 1997-ci il Qanununda da öz ifadəsini tapıb. Qanunun 4-cü maddəsinin 3-cü hissəsində qeyd edilir ki, Məhkəmələr işlərə baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, digər qanunvericilik aktlarını, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar.

Lakin qanunvericilikdə beynəlxalq müqavilə qaydasına birbaşa istinad həmişə müvafiq qadada həll edilmir. Məsələn, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində beynəlxalq hüquq normalarına, o cümlədən beynəlxalq müqavilələrə istinad edilsə də, bu özünəməxsus xüsusiyyət kəsb edir. Cinayət Məcəlləsində beynəlxalq müqavilələrə müxtəlif maddələrdə, eləcə də 11.5, 12.2, 12.3, 12.4, 13.2, 13.4 və d istinad edilir. Həmin maddələrdən daha geniş məzmun kəsb edən 12.3 maddəsində qeyd edilir ki, sülh və bəşəriyyət əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq, hava gəmisini qaçırma, girov götürmə, işgəncələr, dəniz quldurluğu, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, saxta pul və ya qiymətli kağızları hazırlama və ya satma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə, radioaktiv materiallarla əlaqədar cinayətlər, habelə cəzalandırılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn digər cinayətlər törətmiş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, cinayətlərin törədilməsi yerindən asılı olmayaraq, bu Məcəllə əsasında cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır [12, 14].

Buna baxmayaraq Məcəllənin 1-ci maddəsində beynəlxalq müqavilə normaları ifadə edilməyib. Həmin maddədə qeyd edilir ki, cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar ***yalnız*** bu Məcəlləyə daxil olduqdan sonra tətbiq edilə bilər (m.1.3). Hərgah 1.2 maddəsində təsbit edilən «hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə» istinad dolayısı ilə beynəlxalq müqavilə qaydasında ifadə edilən ümumtanınmış normaları da nəzərdə tuta bilər. Lakin hüquq tətbiqedənin hamılıqla tanınan beynəlxalq hüquq normalarına «qeyri-müəyyən» münasibəti istisna edilməməlidir. Digər tərəfdən, Cinayət Məcəlləsinin qeyd etdiyimiz 1.3 maddəsində beynəlxalq müqavilə normalarının birbaşa tətbiqini istisna etməsi, həmçinin beynəlxalq müqavilə normalarının legitimasiyasını nəzərdə tutması Konstitusiyanın 148.II maddəsində təsbit edilən beynəlxalq müqavilə normalarının milli hüquqi implementasiyasının inkorparasiya üsuluna da uyğun deyil. Eləcə də Azərbaycan Respublikası CPM-in 2-ci maddəsində «Cinayət prosessual qanunvericiliyinin mənbələri kateqoriyasında «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən» ibarət olması ilə də uzlaşmır. Azərbaycan Respublikasında məhkəmə təcrübəsinin, o cümlədən Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqi də qeyd edilən hala münasibətdə

qeyri-müəyyən vəziyyətdə qalır. Xüsusən də, Azərbaycan Respublikasının 2001-ci ildə Avropa Şurasının üzvü olduqdan sonra Avropa Şurası çərçivəsində qəbul edilən insan hüquqlarının və azadlıqlarının müdafiəsinin ən səmərəli təminat mexanizmini nəzərdə tutan Avropa Konvensiyası, Avropa Şurasının cinayət hüququ və prosesi sahəsində olan başqa normativ hüquqi aktları ilə bərabər üzv dövlətlərin milli cinayət ədliyyə orqanlarının fəaliyyətinə də real təsir etmək qabiliyyətinə malikdir [13, 43].

Beynəlxalq müqavilə normalarının prioritetinin Cinayət Məcəlləsində ayrı-ayrı müddəalarda, konkret məsələlər üzrə tanınmasının istisna edilməməsi də qeyd edilməlidir. Belə ki, Cinayət Məcəlləsinin 52.3 (Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma) maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə bu Məcəllənin 52.1 və 52.2-ci maddələri arasında ziddiyyət yaranarsa beynəlxalq müqavilələr tətbiq edilir. Hesab edirik ki, Cinayət Məcəlləsinə qeyd edilən qanunvericilik aktlarında təsbit edilən formulanın əlavə edilməsi məqsədəmüvafiqdir.

«İstinadedici hüquqyaratma prosesində» beynəlxalq müqavilə normaları haqqında danışarkən Y.B.Truntsevski və V.V.Qrib qeyd edirlər ki, milli hüquqda «istinadedici hüquqyaratma» zamanı beynəlxalq müqavilə daxili cinayət hüququnun mənbəsi kimi tanınmalıdır. Bu halda da unifikasiyaedici mənbə kimi blanket formulanı və ya resepsiya edilmiş normaları təsbit edən milli qanun və davranış qaydasını ifadə edən beynəlxalq müqavilə tanınmalıdır. Hər bir göstərilən mənbəni unifikasiya edilmiş normanın və müvafiq olaraq cinayət hüququnun mənbəsi kimi adlandırmaq təklif edilir [14, 2].

Bir sıra məsələlərin həllində beynəlxalq müqavilə normaları cinayət qanunvericiliyinin digər mənbələrinə münasibətdə prioritet xususiyyət kəsb edir. Məsələn, inteqrasiya prosesinin təsiri altında sözün geniş mənasında cinayət işləri üzrə hüquqi yardımı tənzim edən beynəlxalq sazişlərin sistemi genişlənməkdədir. Cinayət işləri üzrə icraatın tənzimlənməsi zamanı beynəlxalq müqavilələrdən istifadə zərurəti bir sıra institutların beynəlxalq və cinayət-prosessual hüququnun kəsişmə nöqtəsində yerləşməsilə bağlıdır. Cinayət işləri üzrə hüquqi yardım institutu beynəlxalq müqavilələr olmadan tənzimlənə bilməz [15, 116-117].

Ümumiyyətlə, cinayətkarlıqla mübarizədə dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq müqavilələri də fəaliyyət sferasına, iştirakçıların dairəsinə, cinayətlərə görə məsuliyyəti nəzərdə tutan və onlarla mübarizədə hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyət qaydalarının tətbiqinə görə fərqləndirmək olar [16, 18-19]. Hüquqi yardımın beynəlxalq müqavilə qaydasında tənzimlənməsi digər qanunvericilik aktlarında da, o cümlədən Məhkəmələr və hakimlər haqqında, Ekstradisiya haqqında və s. qanunlarda da öz ifadəsini tapıb. Müvafiq qanunvericilik aktları hüquqi yardım haqqında beynəlxalq sazişlərin (məsələn, Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım

haqqında Avropa Konvensiyası (1959), Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (1973), İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranış və cəzaya qarşı BMT Konvensiyası (1984), Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquq münasibətləri haqqında MDB Sazişi (1993) və s.) tətbiqinə əsas verir. Müstəsna olaraq beynəlxalq müqavilə qaydasında tənzimlənən məsələnin müəyyən bir kateqoriyasını da diplomatik immunitet hüququna malik olan şəxslərin cinayət hüququ statusu təşkil edir.

Cinayət məsuliyyəti məsələlərini tənzimləyən yeni qanunların cinayət qanununa daxil edilməsi müddəasından Cinayət Məcəlləsinin özündə qeyd etdiyimiz istiqamətdə istisna da nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası CM-in 11-ci maddəsinin 5-ci bəndinə görə, «Azərbaycan Respublikasının ərazisində cinayət törətmiş xarici dövlətlərin diplomatik nümayəndələrinin və toxunulmazlıq hüququna malik olan digər şəxslərin cinayət məsuliyyəti haqqında məsələ beynəlxalq hüquq normalarına uyğun olaraq həll edilir». Beləliklə, diplomatik və ya başqa immunitetə malik olan şəxslərin cinayət məsuliyyəti haqqında məsələnin həlli zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsi birbaşa olaraq beynəlxalq hüququn müddəalarına göndərməni nəzərdə tutur.

Beynəlxalq hüquq normalarında təsbit edilmiş cinayət-hüquqi immunitetə dair müddəalar əslində Azərbaycan Respublikası Cinayət Məcəlləsinə dəyişikliklər və əlavələr edilmədən daxili cinayət qanunvericiliyinə salınır və ölkəmizin ərazisində qüvvədə olur. Bunu bir sıra qanunvericilik aktlarının müddəaları (məsələn, «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında» Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsi, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 5-ci maddəsi) nəzərdə tutur. Həmin müddəalara uyğun olaraq, daxili cinayət qanunvericiliyinin müddəaları «xarici diplomatik və konsulluq nümayəndəliklərinin, habelə digər şəxslərin» beynəlxalq müqavilələr əsasında müəyyənləşdirilmiş «immunitetinə» toxunmur. Cinayət-hüquq münasibətlərinin tənzimlənməsi sferasında beynəlxalq hüquq norması istənilən halda cinayət hüququnun mənbəyinə çevrilir, mahiyyətcə onların birgə tətbiqi baş verir. Qeyd etdiyimiz kimi formal olaraq Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının Cinayət Məcəlləsi qüvvədə ola bilər, lakin onun müddəalarının köməyi ilə beynəlxalq xarakterli cinayət-hüquq normaları da uzlaşdırılmış şəkildə qüvvədə olur və hüquqtətbiqedən üçün əsas yaradır.

Dövlətdaxili və beynəlxalq hüquq normalarının uzlaşdırılmış qaydada birgə tətbiqi hüququn universallaşmasının təzahürüdür. Beynəlxalq və dövlətdaxili normanın uzlaşdırılmış (birgə) tətbiqi yalnız hüquqi tənzimetmə predmetinin eyni olması şəraitində mümkündür. Beynəlxalq hüquq normalarının milli hüquqa transformasiyası və ya resepsiyası zamanı ümumi məsələ

kimi cinayət-hüquqi mühafizənin predmeti ilə yanaşı, onun obyekti çıxış edir.

Müvafiq olaraq beynəlxalq və dövlətdaxili hüquq sistemlərində ümumi hüquqi tənzimetmə obyektinə malik olan normalar qrupu ayırd edilir. Ümumi tənzimetmə obyekti kimi, bir tərəfdən çoxsaylı beynəlxalq hüquq aktlarının müddəalarına, digər tərəfdən isə Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 2.1-ci maddəsinə görə insan, onun hüquq və azadlıqları çıxış edir.

Beynəlxalq hüquq normalarının və prinsiplərinin təhlili belə bir nəticəyə əsas verir ki, onlar resepsiya və ya transformasiya yolu ilə daxili qanunvericiliyə daxil edildikləri halda Azərbaycan Respublikasının cinayət hüququnun mənbələri kimi qiymətləndirilməlidir. Cinayət-hüquqi əhəmiyyətə malik beynəl-xalq hüquq aktlarının müstəsna hallarda birbaşa və bilavasitə qüvvədə olmasının mümkünlüyü kontinental hüquq sisteminə mənsub olan ölkələrin cinayət hüququ üçün ümumi cəhətdir. Beynəlxalq hüquq normalarının cinayət hüququnun mənbələri kimi qəbul edilməsi özlüyündə sivilizasiyalı ölkələrin hüquq sistemlərinin yaxınlaşdığının göstəricisidir.

Beynəlxalq hüquq aktlarının cinayət hüququnun mənbəsi kimi tanınması daha bir məsələnin həllini təmin etmiş olur. Bu Cinayət Məcəlləsinin də istinad etdiyi (m.2.1) ümumtanınmış prinsiplərin gözlənilməsi baxımından da əhəmiyyətlidir. Belə ki, həmin prinsiplərə zidd olan cinayət qanunun müddəalarının qüvvəsinə «avtomatik» xitam verilməsi imkanı qanunvericilikdə yoxdur. Belə ziddiyyətin aradan qaldırılması üçün müvafiq prinsipi təsbit edən beynəlxalq müqaviləyə mənbə kimi üstünlük verilməlidir.

Cinayət məsuliyyəti haqqında beynəlxalq hüquq normasının Azərbaycan Respublikası üçün qüvvədə olan digər beynəlxalq hüquq normasına zidd olması halında isə kolliziya beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə uyğun həll edilməlidir. Azərbaycan Respublikasının universal hüquqi sistemə inteqrasiyası yalnız implementasiya öhdəliklərinin səmərəli həyata keçirilməsindən asılıdır. Ümumiyyətlə, beynəlxalq hüquq normalarının dövlətdaxili hüquq sistemində yerinə münasibətdə ümumi və ya birmənalı yanaşma tərzi qəbul edilməlidir. Belə bir yanaşma tərzini inteqrasiya prosesi tələb edir. Bu gün «beynəlxalq huquqla milli qanunvericiliyin qarşılıqlı təsiri dünya birliyinin hüquqi inkişafının ümumi qanunauyğunluğuna çevrilmişdir» [17, 64].

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə beynəlxalq müqavilə normalarının mənbə kimi daxil edilməsi zərurətini bir sıra faktorlar şərtləndirir: insan hüquqları sferasında beynəlxalq müqavilə normaları ilə dövlətdaxili, o cümlədən cinayət qanunvericiliyinin eyni məqsədə malik olması; insan hüquqlarının Konstitusiya qaydasında ən yüksək dəyər kimi bəyan edilməsi (Azərbaycan Respublikası Konstitusiyası, m.12.I); Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi (Azərbaycan Respublikası Konstitusiyası, m.12.II); beynəlxalq

müqavilənin cinayət-prosessual münasibətlərinin tənzimlənməsi sferasında formal mənbə qismində çıxış etməsi.

Qeyd edilən faktorlar tədricən beynəlxalq müqavilə normalarının cinayət-prosessual tənzimetmə mexanizmində funksiyasını daha da genişləndirəcək. Beləliklə, Cinayət Məcəlləsində beynəlxalq müqavilənin mənbə kimi tanınması ilə bərabər, eyni zamanda cinayət hüququ tənzimetmə sferasında beynəlxalq müqavilə normalarının prioritetinin tanınması halları təsbit edilməlidir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 56 s.
2. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti / E.Süleymanovanın redaktəsi ilə. Bakı: Qanun, 2003, 58 s.
3. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı: Qanun, 2007, 31 s.
4. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri: Dərslik. Bakı: BDU, 2007, 488 s.
5. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi: Dərslik. Bakı: NAT-CO MMC, 2009, 490 s.
6. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: ABU, 2008, 240 s.
7. Hüseynov L. H. İnsan hüquqlarının beynəlxalq müdafiəsi. Dərs vəsaiti. Bakı: BDU, 2008, 160 s.
8. Qəfərov M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqi vəziyyəti: nəzəri və təcrübi məsələlər. Bakı: Qanun, 2008, 340 s.
9. Seyidov Ə.J. Azərbaycan Respublikası məhkəmə icraatında beynəlxalq hüquq normalarının tətbiqi. Bakı: Gənclik, 2002, 242 s.
10. Məmmədov R.K. Beynəlxalq cinayət hüququ və milli cinayət hüququnun qarşılıqlı fəaliyyəti. Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakultəsinin 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, BDU, 2002, s. 256-263.
11. Агаев И. Б. Уголовное право АР. Общая и Особенная части: Учебник. М.: Юрист, 2009, 283 с.
12. Ануфриева Л.П. Соотношение международного публичного и частного права: правовые категории. М.: Спарк, 2002, 415 с.
13. Жданов Ю.Н., Лаговская Е.С. Европейское уголовное право. Перспективы развития. М.: Международные отношения, 2001, 314 с.
14. Трунцевский Ю.В. Гриб В.В. О формировании научной концепции имплемантации норм европейского права в России // Международное публичное и частное право, 2001, №4, с. 17-22.
15. Ларин А.М. Уголовной процесс – структура права и структура законодательства. М.: Юрист, 1985, 380 с.
16. Натура А.И. Пихов А. Х-А. Международное сотрудничество в сфере уголовного судопроизводства: организационно-правовые основы, процессуальный порядок и формы взаимодействия. М.: Юрлитинформ, 2007, 432 с.
17. Тихомиров Ю.А. Проблемы сравнительного законоведения // Советское государство и право, 1993, №8, с. 26-32.

**ПРОБЛЕМА РЕАЛИЗАЦИИ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ НОРМ В УГОЛОВНОМ ЗАКОНОДАТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**К.К.МАМЕДОВ**

**РЕЗЮМЕ**

В статье рассматриваются способы реализации преступлении по международному праву в законодательстве Азербайджанской Республики. В соответствии с назначением международно-правовых норм определяются пути совершенствования внутригосударственного уголовного законодательства. Отмечается, что вопреки законодательной практике Азербайджанской Республики, должна поощряться уголовно-законодательная политика тех государств, которые предусматривают прямое применение международно-правовых норм во внутригосударственном уголовном законодательстве.

**Ключевые слова:** международное сотрудничество, общепризнанные прав человека, внутригосударственное законодательство, уголовное законодательство, международное право

**THE PROBLEM OF IMPLEMENTATION OF INTERNATIONAL LEGAL NORMS IN THE CRİMİNAL LEGISLATION OF THE AZERBAIJAN REPUBLIC**

**K.K.MAMMADOV**

**SUMMARY**

The methods and the means of the implementation of crime under the criminal legislation of the Azerbaijan Republic in compliance with international law are investigated in the article. According to the appointment of the standards, the author analyzes means of improving the internal criminal legislative standards and determines ways of their realization. It is remarked that contrary to the legislative practice of the Azerbaijan Republic, the criminal-legislative policy of the states which are grounded on the direct implementation of international legal norms must be propagated.

**Key words:** international cooperation, uniform human rights, internal legislation, criminal legislation, international law.